# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat

# MƏRUZƏSİ

(Əvvəli 5-ci səhifədə).

Son illərdə islahatların dərinləşməsi, ictimai və makroiqtisadi sabitlik iqtisadiyyatın və əhalinin həyat səviyyəsinin yuksəlməsinə səbəb olmuşdur. Aqrar sahəyə göstərilən dövlət qayğısı nəticəsində, rayonumuzun kənd təsərrüfatı sektorunda da əhəmiyyətli dirçəliş hiss edilir. Bu sahədə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin imzaladığı "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncam xüsusi əhəmiyyət kəsb edir. Sərəncamda kənd təsərrüfatı məhsulları istehsalçılarına büdcə vəsaiti hesabına yardımların verilməsi nəzərdə tutulur. Dövlət tərəfindən bu vəsaitlərin verilməsi məhsul istehsalçılarında böyük stimul yaratmışdır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına yardımların verilməsi məqsədi ilə ilkin sənədlərin hazırlanması cari ilin may ayında başa çatdırılacaqdır.

Son illər rayonun iqtisadiyyatının əsasını təşkil edən taxılçılıqda xeyli irəliləyiş nəzərə çarpır. 2016-cı ilin məhsulu üçün 22510 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir. Onun 16010 hektarını buğda, 6500 hektarını isə arpa sahələri təşkil edir. Hazırda həmin sahələrə aqrotexniki qulluq işləri aparılır, alaq otlarına qarşı mübarizə tədbirləri görülür, mineral gübrələrin verilməsi təmin edilir.

Torpaq sahibləri tərəfindən cari ilin məhsulu üçün 355 hektar sahədə yazlıq bitkilər əkilmişdir ki, bunun da 209 hektarını kartof, 50 hektarını tərəvəz, 3 hektarını qarğıdalı, 93 hektarını isə birillik və coxillik otlar təşkil edir. Yazlıq bitkilərin əkini davam edir.

Rüb ərzində rayonda mövcud olan əkin sahələrində torpağın münbitliyini öyrənmək məqsədilə 2800 yerdən torpaq nümunələri götürülərək laboratoriyada analiz edilmiş və nəticələri barədə torpaq mülkiyyətçilərinə məlumat verilmişdir. Ötən dövrdə ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilmiş, o cümlədən təsərrüfat subyektlərinin hesabına alaq otlarına qarşı 930 hektar sahədə, büdcə vəsaiti hesabına gəmiricilərə qarşı 2305 hektar sahədə, mübarizə tədbirləri aparılmışdır.

Yüksək kondisiyalı toxumların əldə olunmasında fermerlərə köməklik göstərilmişdir. Rayonda fəaliyyət göstərən 5 özəl toxumçuluq təsərrüfatının sahələrinə baxış keçirilmiş və yüksək kondisiyalı toxumların əldə olunması üçün sahələrdə aqrotexniki tədbirlərin aparılmasının vacibliyi onlara izah olunmuşdur.

Əkin sahələrində aqrotexniki tədbirlərin yerinə yetirilməsi, zəif əkin sahələrinə yemləmə gübrələrin verilməsi və sahələrin mal-qaradan mühafizə işləri təşkil olunmuşdur. İlin əvvəlindən 70 nəfər məhsul istehsalçısına 1050 ton azot gübrəsi verilmişdir. Sahələrə yemləmə gübrəsinin verilməsi davam etdirilir.

Rüb ərzində dövlət meşə fondu torpaqlarının 14 hektarında torpaq hazırlığı işləri aparılmış və həmin sahələrə qiymətli ağac növləri olan qoz, şabalıd, göyrüc, ağcaqayın tingləri əkilmişdir. Həmçinin 64 hektar sahədə meşə əkini və səpinlərinə hazırlıq işləri aparılmışdır. Meşələrdə qanunsuz ağac kəsilməsinin qarşısının alınmasına nəzarət işləri gücləndirilmişdir.

Qəbələ Dayaq Məntəqəsində rüb ərzində 7 hektar sahədə 200 ədəd fındıq ağacı əkilmiş, 6 hektar məhsuldar və 4 ha cavan fındıq bağında gövdə ətrafının təmizlənməsi və budama işləri aparılmışdır. 2 hektar armud, 2 hektar alma bağında budama və gövdə ətrafı belləmə işləri aparılmışdır. Bundan əlavə məntəqənin sahəsində 200 ədəd alma tingi, 85 topa fındıq, 300 ədəd calaqaltı cır alça əkilmişdir.

Cari ilin ötən dövründə Qəbələ Qızılbalıqyetişdirmə Zavodunda kürüdən çıxmış körpələrin böyüdülərək təbii su hövzələrinə buraxılması üçün lazımi işlər aparılmışdır.

Hazırda rayonda fəaliyyət göstərən 2 böyük və 1 kiçik aqroservisdə kənd təsərrüfatı işlərini tam təmin etmək üçün kifayət qədər kənd təsərrüfatı texnikası mövcuddur. Bundan əlavə rayon üzrə 61 ədəd taxılyığan kombayn, 30 ədəd tırtıllı, 416 ədəd təkərli traktor, 24 ədəd buldozer, 45 ədəd ekskavator, 8 ədəd yem toplayan, 8 ədəd digər özüyeriyən texnika olmaqla hüquqi və fiziki şəxslərdə cəmi 592 ədəd kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir. Rayonda fəaliyyət göstərən "Aqrolizinq" müəssisəsinin şəraitinin yaxşılaşdırılması məqsədilə yeni inzibati və anbar binalarının tikintisi üçün torpaq sahəsi ayrılmışdır.

Heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda rayonda iribuynuzlu mal-qaranın sayı 47.874 baş, xırdabuynuzlu heyvanlar 190.255 baş, donuzların sayı 1.051 başdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı xeyli artmışdır. Belə ki, ət istehsalı 1.357 tona, süd istehsalı 7.954 tona, yumurta istehsalı 3.132 min ədədə çatmışdır. Hazıdra əhalinin quş əti və yumurtaya olan tələbatının ödənməsi məqsədilə rayonda əvvəllər mövcud olmuş broyler quşçuluq kompleksi əsaslı təmir edilərək yenidən fəaliyyətə başlamışdır.

Rayonda mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 6 süni mayalama məntəqəsi fəaliyyət göstərir. Rüb ərzində 1510 baş inək və düyələrdə süni mayalama aparılmışdır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizootik durum demək olar ki, sabitdir. 2016-cı ilin birinci rübü ərzində 6 baş iri buynuzlu heyvanın brüsellyoza qarşı müayinəsi zamanı xəstə olduğu müəyyən edilmiş, həmin heyvanlar kəsilərək təsərrüfatdan çıxarılmışdır. Digər yoluxucu xəstəliklər müşahidə edilməmişdir.

Rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında fəal iştirak edir. Onlar 2016-cı ilin birinci rübü ərzində həmin yarmarkalarda 15 ton tumlu, 23 ton qərzəkli meyvələr və 1,5 ton tərəvəz məhsulları satmışlar. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam edir.

Əhali arasında meyvəçiliyin inkişaf etdirilməsi istiqamətində də təbliğat işləri genişləndirilmişdir. Rayonumuzda hazırda mövcud bağ sahələri 6854 hektar, üzüm plantasiyaları isə 458 hektardır. Üzümçülüyün daha da inkişaf etdirilməsi məqsədilə yeni üzüm plantasiyalarının salınması işləri davam etdirilir.

Respublikamızın iqtisadiyyatındakı irəliləyişlər, aqrar sahəyə dövlət qayğısının daim artması, bu sahədə rayonda görülən işlər bizə deməyə imkan verir ki, rayonumuzun aqrar sahəsi və bu sahədə görülən işlər yüksək templərlə inkişaf edəcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2016-cı ildə informasiya şəbəkələrinin genişləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından istifadə olunmaqla vətəndaşların bütün müraciətlərinə baxılması təmin edilmişdir.

Cari ilin birinci rübü ərzində rayon icra hakimiyyətinə ümumilikdə 284 ərizə daxil olmuşdur. Daxil olan ərizələrdən 93-ü Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 10-u Milli Məclisdən, 5-i Nazirlər Kabinetindən, 39-u digər mərkəzi, icra hakimiyyəti orqanlarından, 137-si isə vətəndaşlardan birbaşa daxil olmuşdur.

Daxil olan ərizələrin məzmunu əsasən müraciət edənlərin mənzillə təmin olunması, müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlməsi və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablar verilmişdir.

2016-cı ilin birinci rübündə vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, rüb ərzində 362 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də 2016-cı ilin ötən dövrü ərzində rayon icra hakimiyyəti başçısının 12 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 1529 nəfər iştirak etmişdir. Onlardan 95 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərin və müraciətlərin 87-si həll edilmiş, 8 məsələnin həlli isə respublikanın digər aidiyyəti təşkilatları tərəfindən icra edilməli olduğuna görə həmin tələblərlə əlaqədar subardinasiya qaydasında onlara müraciətlər ünvanlanmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalrının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, artezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev Nazirlər Kabinetinin iclasındakı yekun nitqində ordu quruculuğuna daha böyük diqqətin göstərilməsinin vacibliyini bildirmiş, buna nail olmaq üçün iqtisadiyyatın sürətlə inkişaf etdirilməsinin əhəmiyyətinə toxunmuşdur. "İqtisadi müstəqillik ölkəmizin siyasi müstəqilliyini şərtləndirir", - deyən dövlətimizin başçısı bildirmişdir ki, ölkədə biznes mühiti yaxşılaşdırılır, sahibkarlara yardımlar davam etdirilir, investisiyaların təşviqi, bank sektorunun möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər görülür.

İclasda cənab İlham Əliyev qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinin, yeni iş yerlərinin yaradılmasının vacibliyini vurğulamış, paytaxtda və rayon mərkəzlərində yeni təşəbbüs olan sosial mənzillərin tikintisi layihəsinə başlanacağını diqqətə çatdırmışdır.

Dövlətimizin başçısı bildirmişdir ki, bu il 40-dan çox kənd yolu layihəsinin icrası, nəqliyyat dəhlizlərində vahid tarif siyasətinin həyata keçirilməsi, Ələt dəniz limanının genişləndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi, genişmiqyaslı ekoloji tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması diqqət mərkəzində saxlanılacaqdır.

**Hörmətli yığıncaq iştirakçıları!**

2016-cı ilin birinci rübü ərzində Qəbələ rayonunda görülən işlər barədə sizə qısa məlumat verdim. Lakin görəcəyimiz işlər daha çoxdur.

Məruzəmin sonunda bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün bütün qüvvələri səfərbər edəcək, yeni nailiyyətlərin qazanılması sahəsində fəaliyyətini genişləndirəcək, üzərinə düşən vəzifələrin icrası istiqamətində bütün lazım gələn tədbirləri həyata keçirəcəkdir.

İcazə verin sizin hər birinizin, bütün qəbələlilərin adından Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevi əmin edim ki, biz həmişə olduğu kimi 2016-cı ildə də işlərimizi yüksək uğurla davam etdirəcək, xalqımıza, vətənimizə, dövlətimizə sədaqətlə xidmət edəcəyik.

**Diqqətinizə görə sağ olun.**